**Afərin Əli ABBASOVA**
Qərbi Kaspi Universiteti, Psixologiya və Sosial iş kafedrasının dosenti, psixol.ü.f.d.
E-mail: aferin.abbasova@wcu.edu.az
ORCID ID: 0000-0002-6948-4301

**Yəhya Rza ABDULLALİ**
Qərbi Kaspi Universiteti, Psixologiya və Sosial İş kafedrasının magistrantı
E-mail: yehya6319@gmail.com
ORCID ID: 0009-0003-5072-9035

# CİNAYƏT DAVRANIŞININ PROQNOZU: PSİXOLOJİ XARAKTERİSTİKALAR ÜZRƏ QEYRİ-SƏLİS MƏNTİQ ƏSASLI RİSKİN QİYMƏTLƏNDİRİLMƏSİ

**Xülasə**

Bu tədqiqat işində cinayət davranışının proqnozlaşdırılması problemi psixoloji xarakteristikalar əsasında və qeyri-səlis məntiq metodologiyası çərçivəsində təhlil edilmişdir. İşdə cinayətkarlıq yalnız hüquqi hadisə kimi deyil, sosial, psixoloji və bioloji determinantların qarşılıqlı təsiri nəticəsində formalaşan mürəkkəb davranış sistemi kimi nəzərdən keçirilmişdir. Müəyyən edilmişdir ki, cinayət riskinin qiymətləndirilməsi sadə səbəb-nəticə əlaqələri ilə deyil, çoxfaktorlu və qeyri-müəyyən sistemlərin kompleks təhlili ilə mümkündür. Tədqiqatın əsas məqsədi fərdin psixoloji xüsusiyyətləri əsasında cinayət davra-nışının baş vermə ehtimalını nəzəri və metodoloji baxımdan əsaslandırmaq, cinayətə təhrik edən və cinayətdən çəkindirən psixoloji amilləri sistemləşdirmək, həmçinin qeyri-səlis məntiq əsasında riskin qiymətləndirilməsini təsvir etməkdən ibarətdir. İşdə cinayət davranışının determinasiya problemi, proqnozlaşdırmanın çətinlikləri və xaotik sistemlərdə nizamın aşkarlanması məsələləri araşdırılmışdır. Psixoloji risk amilləri davranış tarixçəsi, emosional-affektiv xüsusiyyətlər, koqnitiv və qərarvermə mexanizmləri, şəxsiyyət strukturu, iradə və özünənəzarət, dəyər-motivasiya sistemi və sosial-psixoloji bacarıqlar üzrə təsnif edilmişdir. Eyni zamanda, cinayət davranışından çəkindirən psixoloji qoruyucu amillər ayrıca sistemləşdirilərək riskin hesablanmasında onların nəzərə alınmasının zəruriliyi əsaslandırılmışdır. Tədqiqatın tətbiqi hissəsində qeyri-səlis modelləşdirmə mərhələli şəkildə izah edilmiş, psixoloji dəyişənlərin [0;1] intervalında qiymətləndirilməsi, üçbucaq üzvlük funksiyalarının qurulması, "əgər–onda" qaydaları əsasında Mamdani tipli inferens mexanizminin tətbiqi və defuzzifikasiya mərhələsi göstərilmişdir.

**Açar sözlər:** cinayi davranış, psixoloji risk, qiymətləndirmə, dəyərlər sistemi, motivasiya, sosial mühit, emosional vəziyyət, özünənəzarət.

**UOT:** 343.85:159.97
**JEL:** K42, C63
**DOI:** https://doi.org/10.54414/CYCV3924

## Giriş

Müasir cəmiyyətlərdə cinayətkarlıq təkcə hüquqi problem kimi deyil, eyni zamanda sosial, psixoloji və bioloji determinantların qarşılıqlı təsiri nəticəsində formalaşan mürəkkəb davranış sistemi kimi çıxış edir. Müxtəlif determinantları əsrlər boyu araşdırılmasında əsas məqsəd də məhz cinayətkarlığın profilaktikasını həyata keçirməkdir.

Hər bir dövrdə cinayətkarlığın profilaktikasında istifadə edilən tədbirlər məhz həmin dövrün texnoloji, hüquqi, inzibati və bu kimi digər sahələrin inkişafı ilə şərtlənirdi. Müasir dövrün yaratdığı imkanlar isə öz növbəsində cinayətkarlığın profilaktikası istiqamətində yeni addımların atılmasına şərait yaradır.

Fərd tərəfindən cinayətin baş vermə ehtimalının müəyyən edilməsi, proqnozu və psixoloji amillər əsasında cinayət riskinin qiymətləndirilməsi cinayətkarlıqla mübarizə və cinayətlərin profilaktikası istiqamətində aparılacaq mühüm işlərdən biridir. Müasir texnologiya dövrünün yaratdığı imkanlar, suni intelekt və qeyri-səlis məntiq əsaslı metodlar da öz növbəsində cinayət riskinin hesablanması və bu mövzunun araşdırılmasını daha da məqbul edir.

Ümumiyyətlə, risk dedikdə baş verə biləcək arzuolunmaz hadisənin ehtimalı və nəticələrinin ölçülməsi başa düşülür [13]. Proqnozlaşdırma isə hadisələrin inkişafını müəyyən edən amillərin və onların qarşılıqlı təsirinin təhlili əsasında gələcək vəziyyətin əvvəlcədən müəyyən edilməsidir [3].

Bir sıra sadə məntiqi ardıcıllığa və alqoritmə malik olan fəaliyyətdə səbəb-nəticə əlaqəsinin müəyyən edilməsi və bunun əsasında riskin dəyərləndirilməsi çox faktorlu proseslərə münasibətdə daha asan hesab edilir. Lakin, cinayət kimi müxtəlif determinantları olan prosessdə riskin müəyyən edilməsi bir qədər çətinlik yaradır.

Cinayət davranışının əvvəlcədən müəyyən edilməsi sadə səbəb–nəticə münasibətləri ilə izah edilə bilməz. Şəxsin psixoloji xüsusiyyətləri, sosial mühiti, həyat təcrübəsi, dəyərlər sistemi, emosional vəziyyəti və bioloji meylləri bir-biri ilə qarşılıqlı təsirdə olaraq davranışın istiqamətini formalaşdırır. Bu səbəbdən cinayət riskinin qiymətləndirilməsi fərdi amillərin ayrıca təhlili ilə deyil, onların kompleks şəkildə dəyərləndirilməsi yolu ilə həyata keçirilir.

Müasir dövrdə süni intellekt, məlumatların analizi və qeyri-səlis məntiq kimi metodoloji yanaşmalar mürəkkəb və qeyri-müəyyən sistemlərin öyrənilməsində geniş tətbiq edilir. Cinayət davra-nışı da qeyri-müəyyənlik, dəyişkənlik və fərdi istisnalarla zəngin olduğundan, riskin “var” və ya “yox” kimi sərt kateqoriyalarla deyil, ehtimal və dərəcə əsasında qiymətləndirilməsi daha məqsədəuyğun hesab olunur. Bu yanaşma cinayətkarlığın determinantlarını daha real və çevik şəkildə anlamağa imkan verir.

Beləliklə, bu mövzuda aparılan araşdırmanın da məqsədi məhz cinayi davranışın baş vermə ehtimalının proqnozlaşdırılmasına nəzəri–metodoloji baxımdan yanaşmaq, fərdin psixoloji xüsusiyyətlərinin cinayət riskinin formalaşmasındakı rolunu izah etmək və qeyri-səlis məntiq əsasında risk qiymətləndirilməsinin elmi əsaslarını müəyyən etməkdir.

### 1. Cinayət davranışının determinasiya problemi və proqnozlaşdırma çətinliyi

Cinayətkarlığın səbəbləri müxtəlif amillərin qarşılıqlı əlaqəsi və onların kompleks sistemi ilə müəyyən edilir. Bəs, bu qədər müxtəliflilik arasında cinayətkarlığın profilaktikasına yönəlmiş düzgün istiqaməti necə seçə bilərik? Axı, kompleks yanaşma olmadan seçilən hər bir yol ciddi praktiki problemlər yarada bilər. Bu səbədən mövzunun araşdırılması mövcud qarışıqlıq fonunda nizamlı yanaşmanın formalaşdırımasına, cinayətkarlığın determinantlarının müxtəlifliyinə baxmayaraq onların komplektləşdirilməsinə yönəlir.

Buna baxmayaraq cinayətkarlığın profilaktikası istiqamətində fərdin cinayi davranış sərgiləmə riskinin müəyyən edilməsinə dair elmi əsaslandırılmış mövqe formalaşdırmaq üçün ilk növbədə cinayət hadisəsini şərtləndirən daxili mexanizmlərdən çıxış etmək zəruridir. Bu isə bizi qaçılmaz olaraq “cinayət davranışının səbəbləri” anlayışının mahiyyətinin açıqlanmasına zəruri edir.

Cinayi davranışların səbəblərinin müəyyən edilməsi özündə “insan niyə cinayət törədir” sualına cavabın axtarıl-masını ehtiva edir. Bu sual isə özlüyündə iki məna daşıyır. Birinci mənada “niyə törədir?” ifadəsi cinayi davranışın sərgilənməsi zamanı güdülən məqsədi ehtiva edir. İkinci mənada isə “niyə törədir?” sualı davranışı aktiv vəziyyətə gətirən amili, yəni motivasiyanı ifadə edir. Beləliklə, birinci halda müəyyən dəyərin və ya nəticənin əldə edilməsi ön plana çıxır, ikinci halda isə davranışın hərəkətverici mexanizmi olan motivasiya amili əsas rol oynayır. Məqsədlərin müəyyən edilməsi nisbətən asan olsa da, motivasiyanın öyrənilməsi daha mürək-kəb və dərin təhlil tələb edir.

Məqsədlərin öyrənilməsində cinayi davranışı törədən şəxsin ifadələri xüsusilə əhəmiyyətlidir. Belə ki, cinayi davranışın məqsədini cinayət törətmiş şəxsdən başqası aydınlıqla bilə bilməz. İstinaq zamanı əldə edilən məlumatlar onu deməyə əsas verir ki, bir çox insan cinayi davranış sərgiləməsində məqsəd kimi müəyyən dəyər əldə etmə, intiqam alma, hörmət qazanma,

yeni qaydalar yaratmaq, köhnə qaydaları aradan qaldırmaq və bunun kimi yüzlərlə amil göstərilir. Məqsədin aydınlaşdırılması isə öz növbəsində profilaktik proqramın yaradılmasına imkan verir.

Ümumiyyətlə cinayətin törədilmə-sinə emosional vəziyyətin və dəyərlərə münasibətin mühüm rolu var. Adətən insan müxtəlif hisslərin təsiri altında cinayət törədirlər. Bunu müxtəlif konkret qrup cinayətlərə münasibətdə təhlil etmək olar:

• Şəxsiyyət əleyhinə cinayətlər – qəzəb, intiqam, psixoloji problemlər, qorxu, sosial təzyiq və s.

• Şəxsiyyətin azadlığı və ləyaqəti əleyhinə cinayətlər, tamah, eqoizm, intiqam, paxıllıq və s.

• Cinsi toxunulmazlıq əleyhinə cinayətlər – şəhvət, psixoloji problemlər və s.

• Konstitusiya hüquq və azadlıqlar əleyhinə cinayətlər, eqoizm, yüksək özünü-dəyərləndirmə, vəzifədə yüksəlmə istəyi, hörmət qazanma, tamah və s.

• Yeniyetmələrin cinayətləri – güc əldə etmək, qrupda birləşmək, poten-sialın yönləndirilməməsi və s.

• Qadınların cinayətləri – qəzəb, intiqam və s.

• Mülkiyyət əleyhinə və iqtisadi cinayətlər – tamah, yüksək və tez qazanc əldə etmə istəyi və s.

Qeyd edilənlərin sayını daha da artırmaq olar. Buna baxmayaraq cinayətə təhrik edən və çəkindirən bir çox ortaq amil olacaqdır. Hər bir hiss, düşüncə insanı cinayət törətməyə və ya müsbət davranışlar sərgiləməyə yönəldə bilər.

Buna baxmayaraq insanın sırf cinayi davranışı seçməsi müəyyən qədər bioloji, psixoloji, sosioloji amillər ilə şərtlənir. Çünki, özlüyündə mənfi, zərərli olan hiss, emosional vəziyyət yoxdur. Tamah hissi mənfi olaraq qəbul edilsə də, əslində o insanın təbiətindən irəli gələrək, bir çox halda həyatda qalma mexanizmini həyata keçirir. Hər bir insanda tamah hissi vardır və olmalıdır. Əks halda insan sosial münasibətə daxil olmaz, hər hansı bir məqsəd uğrunda çalışmaz. Eyni məsələ qəzəb və digər hislərə də aiddir. Bəzi insanlar qəzəbini, daha doğrusu daxili enerjisini elmə sərf etdiyi halda, digərləri cinayətə yönəldir.

İnsan şəraitdən səmərəli şəkildə istifadə edə bilən varlıqdı. Əgər qar-şısında olan insanların və ya obyektin öz maraqlarına uyğun olduğunu güman edərsə, istəklərini həyata keçirmək üçün hər hansı bir maneə görməzsə ani olaraq ona hücum etməyə hazırdı (əlbəttə, əxlaqlı, vicdanlı, sağlam düşüncəyə malik insanlar istisna olmaqla).

İnsanın davranışında fikirlərin təsiri də əhəmiyyətlidir. Mənfi və ya müsbət fikirlər nəticəsində insan müxtəlif davranış aktları sərgiləyirlər ki, bu da fikrin və şəraitin təsiri altında uğurlu və ya uğursuz şəkildə özünü göstərir. Davranışların əsaslarından biri olan fikirləri idarə etmək bacarığı isə həyat fəaliyyətimizin əsası hesab edilməlidir.

Bir sözlə, cinayətin törədilməsinə səbəb olan amillər müxtəlifdir və onlar həm obyektiv, həm də subyektiv amillər ilə şərtlənir. Lakin, düşünürük ki, obyektiv amillər, yeni xarici təsirlər, dəyişikliklər və digərləri sonda subyektiv reaksiyalarda birləşir, inikas olur. Çünki, hər bir halda davranışı törədən insandır. Xarici, obyektiv amillər sonda insanın davranışlarına təsir edir. Bu səbəbdən deyə bilərik ki, cinayətin törədilməsinə kömək edən onlarla amil olsa da, onları birləşdirən əsas xüsusiyyət insanın ziyansız deyil, məhz ziyanlı davranışı seçməsidir. Yəni, cinayətin səbəblərinin ortaq nöqtəsi məhz budur. Bu səbəbdən profilaktik tədbirlərin yönəlməli olduğu əsas istiqamət də məhz insandır.

Eyni hislərə malik olan, lakin cinayət törədən və ya əksinə müsbət işlə məşğul olan yüzminlərlə insan var. Bəs, insanın cinayi davranışı seçməsinə səbəb olan amil nədir? Buna səbəb insanın düzgün yönləndirilməməsi, zərərli qruplara mənsub olması, düşüncə tərzi, qeyri-əzmkar və dözümsüz olması, bir sıra xəstəliklərin olması və digərləri aid edilə bilər. Nəticədə, profilaktik tədbirlərin istiqaməti mərkəzə insanı qoy-maqla, onun davranışlarına, düşüncəsinə, xarakterinə həyatı boyu təsir edə biləcək sosial, psixoloji, bioloji amillərə yönəlir. Çünki, insanın məhz cinayi davranışı seçməsi yuxarıda sadalanan amillər ilə bağlıdırsa, həmin amillərin formalaşması da öz növbəsində psixoloji, sosioloji, bioloji amillərə bağlıdır.

Qeyd edək ki, cinayi davranış bir hərəkətdir və iradənin olmasını tələb edir. İnsanların iradəsi, qabiliyyətləri fərqləndiyi üçün hər

kəs hər cinayəti törədə bilməz. Nəinki cinayi davranış, ümumiyyətlə hər davranış hər insan üçün uyğun deyil. Bu səbəbdən hər bir iradə özünə uyğun şərait axtarır. Bunu törədilən cinayətlərin təhlili göstərir: törədilən cinayətlərin əksəriyyəti az ağır və ya böyük ictimai təhlükə törətməyən cinayətlərdir. Çünki, daha təhlükəli cinayətlərin törədilməsinə şəxsin iradəsi və qabiliyyəti imkan vermir. Bu da öz növbəsində insanın yaşamaq və təhlükədən müdafiə olunmaq instinktindən və ya meylindən irəli gəlir.

Düşünürük ki, cinayətkarlığın determinantları barədə diqqət edilməli olan əsas məsələ, onların kompleks şəkildə olmasıdır. Heç bir kriminoloq cinayətin konkret səbəbini göstərə, hər hansı bir amilin mütləq şəkildə cinayətə səbəb olacağını irəli sürə bilməz. Cinayətkarlığın determinantları çox mürəkkəb və qarışıq sistemə malikdir. Bu qarışıqlıq isə öz növbəsində cinayətin səbəbləri barədə konkret fikir bildirməyi çətinləşdirir, lakin bunun da bir yolu var.

Dünyada, təbiətdə müxtəlif qaydalar mövcuddur. Həmin qaydalar fizika, riyaziyyat və bunun kimi bir sıra konkret elmlərin tərkibində yaranmış, təbiətin, dünyanın izah edilməsində istifadə edilir. İnsanlar, insanlar arası münasibətlər, elə məhz cinayətkarlığın özü də dünyada baş verir və əslində riyazi, fiziki nəzəriyyələrə uyğun olmağa məcbur olur. Bu səbəbdən konkret elmlərin nailiyyətlərindən istifadə edilərək mürəkkəb sistemə malik olan cinayətkarlığın determinant problemini sadələşdirmək mümkündür.

Dünyada bütün münasibətlərdə xaotik nizam var. İlk baxışdan "xaos" və "nizam" anlayışı bir-birinə zidd görünsə də, əslində elə deyil. Bu xaos mövcud olmalı və "xaos nəzəriyyəsinə" uyğun olaraq nizama çevrilməlidir. Bu mənada xaos və nizam anlayışı bir-biri ilə yüksək qarşılıqlı əlaqəyə malikdir.

İlk baxışdan xaotik bir vəziyyətdə olan hər bir davranış əslində müəyyən müddət sonra nizamlı bir davranışa çevrilə bilər. Lakin, ilk baxışdan xaotik görünən davranışda nizamın ola bilmə ehtimalı çox zaman görünməz və ya bunu təxmin etmək çox çətindir. Eyni qaydada cinayətkarlığın determinantları da müxtəlif olduğu üçün onu dəqiq müəyyən etmək çətinləşir, lakin hər bir halda cinayətə səbəb olan və bizim təxmin edə bilməyəcəyimiz nizamlı bir sistem var.

Məsələn, xaotik şəkildə dalğalanan dənizə rezin tərkibli top atılsa, o top sonda dənizin üzünə çıxacaq. Eyni top dənizin yüzlərlə metr dərinliyində bura-xılsa yenə də dənizin üzünə çıxacaq. Xaotik hərəkət edən dalğalar çox yüngül olan topu müxtəlif istiqamətlərə aparsa da, nizam – topun məhz dənizin üzərinə çıxması ilə bağlıdır. Çünki, burada nizamı yaradan "sıxlıq qanunun" üstünlüyüdür. Misalı bir qədər çətinləşdirək: həmin top suyun dərinliyində hər hansı bir dəniz cərəyanına ilişə, uzun müddət sonra hər hansı bir daşın altına daxil ola və orada qala bilər. Nəticədə, artıq topun su üzərinə çıxması səbəb olan nizam dağılır. Çünki, artıq bu misalda nizam yaradan "sıxlıq qanunu" öz qüvvəsini itirir və top daşın ağırlığı altında qaldığı üçün su üzərinə çıxa bilmir. Göründüyü kimi xaotik olan hər hadisədə belə nizam var, lakin onu qabaqcadan təxmin etmək mürəkkəbdir. Problemi sadələşdirmək üçün xaotik prosesi araşdırmaq, sistemi öyrənmək, nəticədə mövcud olan determinist sistemi tapmaq lazımdır.

Bir prosesin nəticəsini "səbəb-nəticə" əlaqəsinə münasibətdə doğruluq payı yüksək olacaq şəkildə təxmin etməyin mürəkkəb olmasının səbəbi, kiçik həcmli təsirin belə təxmin edilən nəticədən fərqi sonluq yaratmasıdır. Yəni başlanğıcda əhəmiyyətsiz görünən kiçik detallar gələcəkdə çox böyük hadisələrə səbəb olur. Bu da cari zamanda sistemlərin və insanların elastiklik, yüksək adaptasiya xüsusiyyətin olmasını zəruri edir. Qeyd olunan problemi izah edə biləcək fikir isə "kəpənək təsiri"dir. Kəpənək təsiri qarışıq, xaotik problemlərdə ən kiçik təsirin belə nəticələri dəyişə bilmək iqtidarında olduğu göstərən fikirdir. Kəpənək təsiri xaos nəzəriyyəsində sistemin ilkin şərtlərində baş verən çox kiçik dəyişikliklərin belə zaman keçdikcə böyük və gözlənilməz nəticələrə səbəb ola biləcəyini ifadə edir [4].

Xaotik proseslərdə baş verə biləcək kiçik dəyişikliklərin nəticəsini təxmin etməyin çətin olması həmin problem barədə dərin məlumata malik olma-maqdan irəli gəlir. Cinayətkarlıq tam olaraq elə bir hadisə deyil və illər boyu onun determinantları barədə araşdırmalar aparılıb. Lakin, müxtəlif amillərin bir yerə "toplaşması" nəticəsində şəxsin cinayət törədib-törətməyəcəyini tam olaraq demək olmur.

Bir insanda cinayətin törədilməsinə imkan verən bir çox hal və xüsusiyyətlər toplaşsa da, bəzən həmin adam cinayət törətmir. Əksinə, bir insanda müsbət xüsusiyyətlər çox olsa da, həmin adam cinayi davranış sərgiləyir. Doğrudur ki, araşdırıldığı halda bunun da səbəblərini tapmaq olar. Cinayətkarlığın determinantları barədə elmə məlum olan hallar toplu şəkildə bir çox cinayətin qarşısını almağa xidmət etsə də, hər zaman nəzərə alınmayan hallar olacaq ki, bu da istisna şəxslərin cinayət törətməsini qabaqcadan təxmin etməyə mane olacaq.

Məsələn, bir insanın iqtisadi vəziyyəti aşağı səviyyədədir. İnsanlarla qarşılıqlı münasibəti normaldır. Yuxu problemləri var. Spirtli içkilərdən istifadə etmir. Hər hansı bioloji və psixiatrik xəstəlikdən əziyyət çəkmir. Uşaqlıq dövründə zərərli qruplara daxil olub. Ali təhsil alıb. Ailə vəziyyəti normal deyil. Yetkinlik dövründə dini əxlaqa yiyələnib, xarakteri müsbət istiqamətdə dəyişib. Valideynləri tərəfindən düzgün qayğı və diqqət görməyib.

Göründüyü kimi şəxsdə cinayətin törədilməsinə kömək edən və çəkindirən bir çox hal kompleks şəkildə mövcuddur və belə də olmalıdır. Çünki, cinayət törədən insanların yalnız mənfi xüsusiyyətlərə malik olmasını gözləmək sadəlövlükdü. Cinayət törədən hər bir insanda həm müsbət, həm də mənfi xüsusiyyət-lər var. Cinayətin törədilməsinə səbəb olan xüsusiyyət isə yalnız cari şəraitdə və sosial, psixoloji, bioloji səbəblər nəticəsində özünü digərlərindən daha güclü şəkildə göstərən xüsusiyyətlərdir.

Bütün bunlardan "cinayətkarlıqla mübarizə aparmaq mümkün deyil" nəticəsinə gəlmək olar? Xeyr. Cinayət-karlıqla mübarizə mümkündür. Lakin, məsələyə real baxarıqsa, cinayətkarlığı tam olaraq aradan qaldırmaq mümkün deyil. Cinayətkarlığın məlum determinantları mövcuddur və onlar aradan qaldırıldıqda, yuxarıda olan misalda göstərilən bir sıra mənfi xüsusiyyətlərin sayı azala bilər. Nəticədə, cinayətin törədilməsinə imkan verən halların sayı, onu aradan qaldıran halların sayından az ola bilər. Bu da cəmiyyətdə baş verən cinayətlərin sayının azalması ilə nəticələnə bilər.

Əslində, cinayətkarlığa səbəb olan amillərin əksi də cinayətin olmasına zəmin yarada bilər. Məsələn, araşdır-malar göstərir ki, iqtisadi vəziyyətin aşağı səviyyədə olması mülkiyyət əleyhinə cinayətlərə səbəb olar. Həmin vəziyyətin əksi olan, iqtisadi vəziyyətin yüksək olması amili də cinayətə səbəb ola bilir (əslində bunun da səbəbləri mövcuddur və bu da səbəblərin "dolayı budaqlarını" yaradır). Amma orta imkanlı olmaq cinayət riskini azalda bilər. Nəzərə alaq ki, iqtisadi amillər kimi cinayətkarlığın minlərlə səbəbi var. Hər birinin səviyyəsini artırıb-azaltdıqda müxtəlif cinayətlərə şərait yarada bilir. Deməli, bunları sxematik olaraq elə səviyyədə saxlamaq lazımdır ki, ritm pozulmasın, nizam yaransın. Beləliklə, biz cinayətlərin səbəbini sadə şəkildə ad olaraq müəyyən etməməli, daha da irəli gedərək cinayətə səbəb olar amilin hansı səviyyədə olarsa cinayət yaradacağını öyrənməliyik. Başqa sözlə, sadəcə "səbəb-nəticə" xəttini deyil, səbəbin hansı səviyyədə və hansı ritmdə cinayətə yol açacağını öyrənməliyik.

Cinayətkarlığın determinantlarına kompleks şəkildə baxılsa cinayət riskini hesablamaq mümkün olsa da, tam dəqiqliklə nəticəni aşkar etmək çətindir. Cinayətkarlığın determinantlarına ayrılıqda, fərdi şəkildə baxıldıqda da eyni nəticə əldə edilir. Çünki, "təhsil səviyyə-sinin zəif olması" amilini konkret olaraq cinayətkarlığın səbəbi kimi göstərmək olmur. Bəzən onu yüksək olması da cinayətə səbəb ola bilir. Bu da öz növbəsində nisbi yanaşması zəruri edir. Nisbi yanaşmanın müəyyən edilməsi qeyri-səlis məntiqlə həyata keçirilə bilər.

Qeyri-səlis məntiq nəzəriyyəsi "0, 1", "ağ, qara", "yaxşı, pis" anlayışları ilə işləməyən, orta aralıqları müəyyən edə bilən fikirdir. Sadə parametrləri olan problemlərdə insan daha asan qərar verə bilir. Məsələn, yol ayrıcında qalan insan məqsədinə uyğun olaraq ya sağa, ya da sola dönmək barədə qərar verir. Lakin, cinayətkarlığın determinasiyasında oldu-ğu kimi parametrlərin sayı artıqda doğru qərar vermək, dəqiq təxminlər irəli sürmək çətinləşir.

**2. Cinayi davranışa səbəb olan psixoloji risk amillərinin təsnifatı**

Cinayətkarlığın determinantları barədə aparılan araşdırmalar onu göstərir ki, cinayətin törədilməsinə kömək edən amillər yalnız psixoloji aspektlə məhdud-laşmır. Bu bir sıra bioloji, psixoloji, sosioloji amillərin qarşılıqlı əlaqə və təsiri nəticəsində formalaşan hadisədir. Lakin, baş verən hadisələrin insanın subyektiv

aləmində inikas olması və insanın hadisəyə öz xarakteri istiqa-mətində reaksiya verməsi faktını nəzərə alaraq, həm də mövzunun mahiyyətinə uyğun olaraq psixoloji amillərin önəmini ön plana çıxarır.

Başqa sözlə, obyektiv sosial və bioloji təsirlər son nəticədə insanın daxili psixoloji mexanizmləri vasitəsilə davranış aktına çevrilir. Bu səbəbdən cinayət riskinin müəyyən edilməsi və proqnoz-laşdırılması baxımından psixoloji amil-lərin sistemli şəkildə araşdırılması metodoloji cəhətdən daha məqsədəuyğun hesab olunur.

Beləliklə, cinayi davranışın baş verməsinə səbəb olan bir sıra psixoloji amilləri müəyyən təsnifat altında topla-maq mümkündür. Həmin təsnifat qruplarını aşağıdakı formada təsvir etmək olar:

a. *Davranış tarixçəsi və adaptiv mexanizmlər:* təkrar cinayət, həyat istiqamətləri, sosial adaptasiya qabiliyyəti, psixikanın elastikliyi. Cinayətin təkrarlanması şəxsin müdafiə mexanizmləri və super-eqosu ilə sıx bağlıdır. Bu halda insanda günah-karlıq hissi ilk dəfə baş verən cinayət zamanı duyulan günahkarlıq hissinə nisbətdə daha da azalır, şəxsin ətrafa və əməlinə münasibəti dəyişir.

Həyat istiqamətləri şəxsin uzunmüddətli məqsədlərini, öz gələcəyini necə qavradığını, hansı dəyərləri önəmli hesab etdiyini və davranışını hansı istiqamətdə planlaşdırdığını əks etdirən psixoloji sistemdir. Elmi tədqiqatlar göstərir ki, fərdin qəbul edilən həyat istiqamətlərinin olmaması, bunların deformasiyaya uğraması cinayət riskini artıran əsas elementlərdən biridir [5].

Psixikanın elastikliyi fərdin dəyişən həyat şəraitinə uyğunlaşma, stress və travmatik təsirlərə baxmayaraq funksional davranışı qoruma və alternativ davranış strategiyaları formalaşdırma qabiliyyətini ifadə edir. Cinayət riski kontekstində psixikanın elastikliyi fərdin çətinliklərə hüquqazidd və ya sosial cəhətdən qəbul edilən yollarla reaksiya verməsini müəyyən edən əsas psixoloji mexanizmlərdən biridir [6].

b. *Emosional-affektiv amillər* - aqressiya səviyyəsi, impulsivlik, stress anında reaksiya, emosional gərginlik, frusturasiya tolerantlığı, travmatik təcrübələr. Aqressiya fərdin özünü müdafiə, üstünlük qazanma və ya gərginliyi boşaltma məqsədilə destruktiv davranışa yönəlmiş emosional enerjisidir. Cinayət riski baxımından aqressiya zorakı və affektiv cinayətlərin riskini artırır və tənzimlənə bilmədikdə impulsiv xarakterli davranışlara gətirib çıxarır [7]. İmpulsiv şəxslərdə qərarlar ani emosional vəziyyət əsasında verilir, nəticələr əvvəlcədən qiymətləndirilmir, risk və cəza ehtimalı nəzərə alınmır.

Frustrasiya tolerantlığı məqsədlərə çatmama, maneələrlə üzləşmə və uğursuzluqlara dözmə qabiliyyətidir. Aşağı frustrasiya tolerantlığı olan şəxslərdə hər maneə ədalətsizlik kimi qəbul edilir, fərdə hüquqazidd davranışı "ədalətli addım" kimi dəyərləndirilir.

c. *Koqnitiv və qərarvermə amilləri* - təfəkkür, normativ dəyərlərin qavranılması, ustanovkalar, daxili komplekslər, şüur səviyyəsi. Təfəkkür fərdin hadisələr arasında əlaqə qurma, alternativləri qiymətləndirmə və nəticələri qabaqcadan görmə qabiliyyətidir. Nəticələrin uzunmüddətli qiymətləndirilməməsi, orta həddin müəyyən edilə bilinməməsi aşağı təfəkkürdən xəbər verir və bu tip şəxslərin tez təsir altında düşmə, nəticədə cinayət törətmə riski artır.

Ustanovkalar fərdin müəyyən situasiyalara qarşı əvvəlcədən formalaşmış münasibət və gözləntiləridir. Uzun müddət olduğu mühitdə fərdin qəbul etdiyi antisosial xarakterli "ustanovkalar" onun gələcəkdə cinayət törətmə riskini artırır. Daxili komplekslər (aşağı özünü-dəyər, natamamlıq hissi, sosial rədd edilmə təcrübəsi) cinayət riskinə dolayı, lakin güclü təsir göstərir. Belə şəxslərdə cinayət davranışı özünü sübut etmə vasitəsinə çevrilə, riskli davranışlar status qazanma üsulu kimi istifadə oluna bilər. Alfred Adler qeyd edirdi ki, insan davranışının mühüm motivlərindən biri natamamlıq hissinin kompensasiyası və üstünlük qazanmağa yönəlmiş cəhddir [8].

d. *Şəxsiyyət və xarakter amilləri* - xarakter xüsusiyyətləri, şəxsiyyət pozuntuları, empatiya səviyyəsi, daxili məsuliyyət hissi. Xarakter fərdin emosional reaksiyalarının, davranış stereotiplərinin və sosial münasibətlərinin sabit xüsusiyyətləridir. Cinayət riski baxımından yüksək dominatlıq, dözümsüzlük, anti-sosial xarakter xüsusiyyətləri risk yaradan hesab olunur

Şəxsiyyət pozuntuları (antisosial, sərhəd, narsisistik və s.) davranışın normativ çərçivədən

kənara çıxmasına səbəb olan davamlı psixoloji strukturlarla xarakterizə olunur.

Empatiya digər insanların hiss və vəziyyətlərini anlama və onlara emosional reaksiya vermə qabiliyyətidir. Cinayət riski empatiya səviyyəsi aşağı olduqda artır, çünki zərər vermənin emosional nəticələri nəzərə alınmır, qurbanın ağrısı davranışın qarşısını alan mexanizm rolunu oynamır [9].

Daxili məsuliyyət hissi fərdin öz davranışının nəticələrini qəbul etmə və özünü bu nəticələrə görə cavabdeh sayma qabiliyyətidir. Məsuliyyətin və ya günahın xarici amillərə yönləndirilməsi (müdafiə mexanizmi olaraq), davranışın nəticələrindən nəticə çıxarmaq qabiliyyətinin zəifləməsi cinayət riskini artıran əsas amillərdəndir.

e. *İradə və özünənəzarət mexanizmləri* - İradə, özünənəzarət, konfliktləri idarə etmə qabiliyyəti, bacarıq və problem həll etmə qabiliyyəti. İradə fərdin qarşıya qoyduğu məqsədə çatma əzmidir. İradə zəif olduqda situativ emosiyalar rasional qərarları üstələyir, "indi və təcili" prinsipi üstünlük qazanır, riskli və hüquqazidd davranışlar daha asan seçilir. Güclü iradə isə cinayət riskini azaldan qoruyucu mexanizm kimi çıxış edir, çünki fərd nəticələri əvvəlcədən qiymətləndirə bilir.

Özünənəzarət fərdin emosional, motivasion və davranış impulslarını nəzarətdə saxlamaq qabiliyyətidir. Elmi tədqiqatlar göstərir ki, aşağı özünənəzarət aqressiv reaksiya ehtimalını artırır, impulsiv cinayətlərin (zorakılıq, xuliqanlıq, impulsiv oğurluq) riskini yüksəldir.

f. *Dəyər-motivasiya sistemi* - sərvət dəyərləri, motivasiya sistemi, tələbatlar, əxlaq, mənəvi-sosial dəyərlər. Maddi sərvətlərin sosial statusun əsas göstəricisi kimi qəbul edilməsi, sürətli və zəhmətsiz əldə edilməsinin normallaşdırılması cinayət riskini artıran əsas faktorlardandır. Bu halda hüquqazidd yollar alternativ kimi qəbul edilir. Əxlaq fərdin davranışına daxili normativ çərçivə yaradır. Əxlaqi tənzimləmə zəif olduqda vicdan və günah hissi davranışı məhdudlaşdırmır, məsuliyyət hissi situativ maraqlara tabe olur.

g. *Sosial-psixoloji bacarıqlar* – ünsiyyət bacarıqları, konfliktlərə yana-şma tərzi, sosial münasibətlərə qoşulma üsulları və növləri. Ünsiyyət bacarıqları fərdin öz ehtiyac və narazılıqlarını verbal, normativ və konstruktiv şəkildə ifadə etmə imkanlarını müəyyən edir. Bu bacarıqlar zəif olduqda emosiyalar sözlə deyil, davranışla ifadə olunur, aqressiv və zorakı reaksiyalar artır, anlaşılmazlıqlar konfliktə çevrilir. Aşağı ünsiyyət baca-rığı xüsusilə impulsiv zorakılıq, ailədaxili münaqişələr və küçə cinayətləri riskini yüksəldir [10].

Konfliktlərə yanaşma tərzi fərdin münaqişə vəziyyətində seçdiyi davranış üsulunu əks etdirir. Risk baxımından münaqişə vəziyyətində seçilən yanaş-malar aqresiv, qaçınan, manipulyativ, konstruktiv, əməkdaşlıq olmaqla müxtəlif növlərə bölünür [11].

**3. Cinayi davranışdan çəkindirən psixoloji amillərin təsnifatı**

Heç bir cinayətkarın şəxsiyyətini yalnız mənfi xüsusiyyətlərin toplusu kimi nəzərdən keçirmək olmaz. Hər bir insanda olduğu kimi onlar da müəyyən müsbət xüsusiyyətləri özlərində daşıyırlar. Bəzən bir müsbət xüsusiyyətin adekvat situasiyada aktivləşməsi fonunda saysız mənfi xüsusiyyətlərə baxmayaraq cinayətkar cinayi davranış düşüncəsindən imtina edir.

Eyni zamanda müsbət xüsusiyyətlərin, daha doğrusu cinayi davranışdan çəkindirən amillərin təhlili də öz növbəsində cinayət riskinin düzgün hesablanmasına zəmin yaradır. Belə ki, riskin hesablanması zamanı yalnız cinayətə təhrik edən amillərin nəzərə alınması risk əmsalının suni sürətdə artmasına zəmin yarada bilər.

Cinayi davranışdan çəkindirən amillər ona təhrik edən amillərin deformasiyaya uğramamış formasıdır. Aşağı empatiya cinayətə səbəb ola bilirsə, yüksək empatiya əksinə cinayətdən çəkindirə bilər. Bunlar aydın məsələdir və cinayət risk əmsalını hesablayan zaman hər bir xüsusiyyətin aşağı və yuxarı səviyyələri hər bir halda nəzərə alınmalıdır.

Bütün bunlardan əlavə olaraq bildirmək lazımdır ki, bir sıra xüsusiyyətlər vardır ki, onlar cinayətə təhrik edən amillərin əksi, müsbət forması kimi nəzərdən keçirilə bilmir. Məhz, həmin amillər fərdi şəkildə mövcud olur və çəkindirici funksiyanı yerinə yetirir. Beləliklə, cinayi davranışdan çəkindirən amillərə aşağıdakıları aid edə bilərik:

a. *Mənəvi–dəyər yönümlü çəkindirici amillər:* güclü əxlaqi dəyərlər və vicdan mexanizmi, mənəvi məsuliyyət hissi, sosial

ədalət və hüquqa hörmət, davranışın nəticələrinə mənəvi qiymət vermə qabiliyyəti. Əxlaqi dəyərlər və vicdan mexanizmi (super-eqo) insan davranışının tənzimləyicisi kimi çıxış edir. Vicdan fərdin davranışlarını öyrəndiyi daxili norma və dəyərlərlə müqayisə etməsinə, uyğunsuzluq yarandıqda isə psixoloji diskomfort yaşamasına, müdafiə mexanizmlərinin aktivləşməsinə səbəb olur. Bu isə cinayət davranışının reallaşmasından öncə və ya sonra çəkindirici funksiya yerinə yetirir.

Sosial ədalət anlayışı və hüquqa hörmət fərdin qanunları yalnız cəza qorxusu ilə deyil, ədalətli norma kimi qəbul etməsi ilə bağlıdır. Hüquqa hörmət formalaşdıqda, hüquq pozuntusu fərd üçün şəxsi mənafeyə xidmət edən davranış deyil, sosial nizama zərbə kimi qiymətləndirilir. Bu da zamanla maarif-ləndirmə fonunda hüquqi dərk etmənin formalaşması ilə əlaqəlidir.

b. *Empatik və emosional tənzimləyici amillər:* yüksək empatiya səviyyəsi, başqasının emosional vəziyyətini anlama bacarığı, günahkarlıq və peşmanlıq hissinin mövcudluğu, emosional reaksiya üzərində nəzarət. Emosional reaksiya üzərində nəzarət fərdin güclü emosional gərginlik, stress və ya qıcıqlandırıcı təsirlər altında impulsiv davranışlardan çəkinməsini təmin edir. Cinayət riski kontekstində emosional nəzarət mexanizmi xüsusilə ani, situativ və planlaşdırılmamış cinayətlərin qarşısının alınmasında əsas rol oynayır.

c. *İradə və özünənəzarət yönümlü çəkindirici amillər:* güclü iradə, yüksək özünənəzarət, impulsların gecikdirilməsi bacarığı, stress altında rasional qərar vermə qabiliyyəti. Güclü iradə fərdin daxili istək və impulslarına baxmayaraq, uzunmüddətli məqsədlərini və normativ dəyərlərini rəhbər tutaraq qərar qəbul etmə qabiliyyəti ilə xarakterizə olunur. Bu xüsusiyyət hüquqazidd davranışa aparan ani həvəslərin qarşısında müqavimət yaradır.

d. *Koqnitiv–normativ çəkindirici amillər:* normativ dəyərlərin adekvat dərk edilməsi, nəticəyönlü təfəkkür, uzunmüddətli nəticələri qabaqcadan qiymətləndirmə, hüquqi məsuliyyətin şüurlu qavranılması. Nəticəyönlü təfəkkür fərdin davranışın mümkün nəticələrini qabaqcadan analiz etməsi və qərarını bu nəticələr əsasında formalaşdırması qabiliyyətidir. Bu təfəkkür tərzi qısa müddətli qazancı uzunmüddətli itkilərlə müqayisə etməyə imkan yaradır. Uzunmüddətli nəticələri qabaqcadan qiymətləndirmə bacarığı fərdin hüquqi cəza ilə yanaşı, sosial statusun itirilməsi, peşə imkanlarının məhdudlaşması, ailə və ictimai münasibətlərə dəyən zərəri nəzərə almasını təmin edir.

e. *Sosial-psixoloji qoruyucu amillər:* sabit ailə və yaxın sosial münasibətlər, sosial məsuliyyət hissi, normativ sosial qruplara mənsubiyyət, müsbət sosial rolların mövcudluğu. Sabit ailə münasibətləri və güclü sosial bağlar fərdin emosional təhlükəsizlik hissini artırır və sosial izolyasiyanın qarşısını alır. Ailə və yaxın çevrə tərəfindən qəbul olunma hissi hüquqazidd davranışın əsaslarını zəiflədir. Elmi tədqiqatlar göstərir ki, sosial əlaqələri zəif olan, təcrid olunmuş fərdlərdə cinayət riski daha yüksək olur.

Sosial məsuliyyət hissi fərdin davranışlarının cəmiyyətə təsirini dərk etməsi ilə bağlıdır. Bu hiss formalaşdıqda fərd yalnız şəxsi maraqlarını deyil, sosial nəticələri də nəzərə alaraq qərar qəbul edir.

Müsbət sosial rollar (valideyn, əməkdaş, tələbə, icma üzvü və s.) fərdin sosial identikliyini formalaşdırır və davranışına normativ məna qazandırır. Bu rollar hüquqazidd davranışla uyğun gəlmədiyi üçün çəkindirici funksiya yerinə yetirir. Müsbət sosial rolların mövcudluğu fərdin cinayət davranışına yönəlməsini psixoloji və sosial baxımdan çətinləşdirir. Kriminoloq Hirşinin sosial nəzarət nəzəriyyəsi iddia edir ki, insanın davranışı dövlətin qanunlarından əlavə, toplumun ona verdiyi ictimai rollar, dəyərlər, bağlılıqlar və normalarla nəzarət olunur [5].

f. *Motivasiya və həyat istiqaməti ilə bağlı çəkindirici amillər:* real və uzun-müddətli həyat məqsədləri, özünüreallaşdırma ehtiyacının normativ yollarla təmin olunması, gələcəyə yönəlmiş planlama, sosial statusu qanuni yollarla əldə etmə istəyi. Özünüreallaşdırma ehtiyacı insan davranışının əsas motivasiya mənbələrindən biridir. Bu ehtiyac qanuni və sosial baxımdan qəbul olunan yollarla təmin olunduqda cinayət davranışına alternativ çıxış yolları formalaşır. Əksinə, özünü-reallaşdırma imkanlarının məhdudluğu və ya qeyri-normativ yollarla ödənməsi cinayət riskini artırır.

g. *Psixoloji elastiklik və adaptiv potensial:* yüksək psixoloji elastiklik, stresə

davamlılıq, travmatik təcrübələrin konstruktiv işlənməsi, dəyişən şəraitdə adaptiv yolların seçilməsi.Yüksək psixoloji elastiklik fərdin psixoloji sarsıntılardan sonra əvvəlki funksional səviyyəsinə qayıtmaq və ya yeni şəraitə uyğunlaşaraq inkişaf etmək qabiliyyəti ilə xarakterizə olunur. Elastik psixikaya malik fərdlər uğursuzluq, sosial itki və ya təzyiq vəziyyətlərini şəxsiyyət üçün dağıdıcı deyil, müvəqqəti və idarəolunan kimi qiymətləndirirlər.

Travmatik təcrübələr fərdin psixikasında destruktiv şəkildə emal edildikdə aqressiya, qisasçılıq və normativ dəyərlərin deformasiyası ilə nəticələnə bilər. Lakin travmaların dərk edilməsi, qəbul olunması və mənalandırılması fərdi destruktiv davranışdan çəkindirən mühüm psixoloji amilə çevrilir [12].

Adaptiv strategiya seçmək qabiliy-yəti fərdin çətin sosial və psixoloji vəziyyətlərdə alternativ, qanuni və funksional davranış yolları tapa bilməsini ifadə edir. Bu qabiliyyət zəif olduqda fərd “yeganə çıxış yolu” kimi hüquqazidd davranışı qəbul edə bilər.

**4. Riskin qeyri-səlis modelləşdirilməsi**

Əlçatan informasiyanın zəif strukturlaşması faktoru ilə səciyyələnən qeyri-müəyyənlik şəraitində sosial əhəmiyyətli prosesləri və hadisələri təhlil etmək və proqnozlaşdırmaq qabiliyyəti təşkilat hüquqi davranışın təsvir etmə problematikasında həlledici məsələ kimi durur. Burada mövcud olan qeyri-müəyyənliyi aradan qaldırma imkanını yeni üsulların və modellərin istifadəsində görürlər [1].

Bu gün zəif strukturlaşmış proseslərin və hadisələrin təhlili, modelləşdirilməsi və proqnozlaşdırılması sahəsində elmi tədqiqatların ən perspektivli istiqamətlərindən biri kimi qeyri-səlis məntiqi və qeyri-səlis çoxluqlar nəzəriyyəsinin riyazi aparatını qəbul etmək olar [2].

Artıq müasir dördə müəyyən prosesslərdə mövcud olan qeyri-müəyyənliyi aradan qaldırmaq, hesablamaq üçün klassik məntiqin imkanları yetərli hesab edilmir. Buna səbəb qeyri-səlis məntiqin klassik məntiqdən fərqli olaraq hesablamaların [1] arasında aparılmasına imkan yaratması, linqvistik “sərtliyi” aradan qaldıran daha çevik model təqdim etməsidir. Belə ki, həyatda baş verən hadisələr və onların nəticələrini təsvir edərkən konkret cavab və rəqəmlərdən istifadə etmək artıq qeyri-obyektivlik yaradır. Əgər, klassik məntiqdə hava istidir (1) və ya hava soyuqdur (0) kimi ifadələrdən istifadə edilirdisə, qeyri-səlis məntiqdə ara hədləri müəyyən edir və hadisəni (0,1) aralığında qiymətləndirilir.

Cinayətkarlığın psixoloji determinantları əsasında qeyri-səlis məntiqdən istifadə edilməklə riskin qiymətləndirilməsi əslində əlverişli bir üsul hesab edilir. Bu da məhz psixoloji amillərin müəyyən edilməsi metodikasının qeyri-səlis modelləşdirmə üçün daxil ediləcək verilənlərin asan təsbit edilməsinə yardım edə bilməsi ilə bağlıdır. Çünki, psixoloji xüsusiyyətlərin müəyyən edilməsi üçün psixoloqlar tərəfindən istifadə edilən bir sıra testlər, anketlər və digər metodlar vardır ki, onların sayəsində zəruri verilənlər əmsalı müəyyən edilə bilir.

Qeyri-səlis modelləşdirmə əsasında psixoloji amillərə görə cinayətin baş vermə riski, ehtimalı (0;1) aralığında qiymətləndirilir. Nəticədə, şəxsin cinayət törətmə riski təxmin olunur. Bunun üçün mərhələli model təşkil edilməlidir.

a. İlk mərhələdə dəyişənlər seçilir. Belə ki, cinayət riskinin hesablanması üçün müraiət edilən şəxsin cinayi davranışa təhrik edək psixoloji xüsusiyyətləri aşkar edilir. Bunun üçün elmi tədqiqatlar əsasında təsdiqlənmiş və cinayətin baş vermə ehtimalını artıran amillərin aşkarlanması lazımdır.

b. Növbəti mərhələdə aşkar edilmiş xüsusiyyətlərin sözlü şəkildə qiymətləndirmə meyarları təsdiqlənir. Başqa sözlə dəyişənlərin dərəcəsi aşağı, orta və ya yüksək olaraq qiymətləndirilir.

c. Daha sonra kriminal xüsusiyyətlərin qiymətləndirilməsi həyata keçirilir. Bu iş adətən psixoloq-ekspert tərəfindən həyata keçirilir. Psixoloq-ekspert müxtəlif metod və testlərdən istifadə edərək şəxsin aqressivliyini qiymətləndirir. Məsələn, Bass-Dark metodikası ilə fərdin aqressiya səviy-yəsinin 0.7 səviyyəsində olduğunu müəyyən edir.

d. Müəyyən edilmiş qiymətlərin [0;1] aralığında aşağı, orta və ya yüksək səviyyədə olması sözlə təsvir edilir. Başqa sözlə, psixoloq 0.7 dərəcədə olan aqressiyanın yüksək olduğunu və ya aşağı olduğunu təsvir edir.

e. Ardınca, dəyişənlərin qiyməti üçbucaq üzvlük funksiyası vasitəsilə riyazi olaraq ifadə edilir.

f. Növbəti mərhələdə "əgər-onda" ("if, then") üsulu ilə psixoloji amillər əsasında ehtimal qaydalar qurulur. Məsələn, əgər "impulsivlik yüksək və aqressiya orta olarsa cinayət davranışının baş vermə ehtimalı orta səviyyədə olar", "əgər impulsivlik aşağı və ….." bu tipli qaydalar qurulur.

g. Sonda Mamdani tipli inferens mexanizmi və mərkəz (centroid) metodu əsasında risk əmsalı hesablanır.

Beləliklə, qeyri-səlis modelləşdir-mənin konseptual əsası təsvir edildikdən sonra əsas məsələ onun riyazi olaraq modelləşdirilməsidir. Bu zaman real psixoloji amilləri nümunə olaraq istifadə edərək, riyazi şəkildə təsvir edə bilərik. Bunun üçün prosesi yuxarıda qeyd edilən mərhələlər üzrə təsvir etməyə çalışa-cağıq.

1. Psixoloji amillər əsasında cinayi davranışın baş vermə riskinin qeyri-səlis modelləşdirmə əsasında hesablanmasının aydın təsviri məqsədilə xəyali cinayətkar şəxsin cinayi davranışına səbəb olan iki psixoloji amil üzərində hesablama aparaq. Bunlara cinayət törətmiş şəxsin psixoloq-ekspert tərəfindən müəyyən edilən aqressivlik və impulsivlik xüsusiyyətləri aiddir. Bu dəyişənlər riyazi olaraq aşağıdakı kimi göstəriləcək:

**$X=\{x_1,x_2,\dots,x_n\}$** - burada "x" dəyişənlər, başqa sözlə hesablanacaq psixoloji amillərdir. Biz iki amil üzərində hesablama aparacağımız üçün "$x_1$" və "$x_2$" yetərli hesab edilir.

Daha sonra psixoloq-ekspert tərəfindən şəxsin müvafiq psixoloji xüsusiyyətləri hesablanır və o "0-1" aralığından qiymətləndirilir. Məsələn, ekspert-psixoloq şəxsin aqressiya səviyyəsini 0.7, impulsivlik səviyyəsini isə 0.8 olaraq qiymətləndirir. Bunun üçün müxtəlif psixoloji amillərin qiymətləndirilməsi üçün istifadə edilən testlərə müraciət edilir. Beləliklə, $x_1$ - 0.7, $x_2$ - 0.8 olaraq müəyyən olunur.

2. Növbəti mərhələdə müəyyən edilmiş ədədi qiymətlərin **üzvlük dərəcələri** hesablanmalıdır. Başqa sözlə, dəyişənin "aşağı", "orta" və "yüksək" səviyyələrinə **neçə dərəcədə** aid olduğu müəyyən edilir.

Bu zaman ekspert-psixoloq 0.7 səviyyəsində olan aqressiyanın aşağı, orta, yoxsa yüksək olduğunu klinik müşahidələri, təcrübə və müvafiq elmi tədqiqatların nəticələri əsasında sözlü şəkildə ifadə edir. Lakin, bu sözlü qiymətləndirmənin riyazi ifadə formasına salınması üçün "üçbucaq üzvlük funksiyasından" istifadə edilir. Bu zaman ekspert tərəfindən verilən sözlü qiymət-ləndirmə kəmiyyət ifadəsinə çevrilir.

Bu məqsədlə (0;1) intervalında dəyişən üfüqi ox qurulur. Oxun sol başlanğıcı 0, sağ sonu isə 1 olaraq qəbul edilir. Daha sonra bu interval daxilində üç əsas mərkəz nöqtəsi seçilir. Məsələn, 0.3 aşağı səviyyənin, 0.5 orta səviyyənin, 0.8 isə yüksək səviyyənin mərkəzi kimi müəyyən edilə bilər. Qeyd edilməlidir ki, bu nöqtələrin dəqiq qiymətləri empirik tədqiqatların nəticələrinə uyğun olaraq dəyişdirilə bilər.




Daha sonra çəkilmiş üfüqi xəttin 0.5 nöqtəsindən yuxarı düz şaquli xətt çəkilir. 0.5 dəyəri orta səviyyənin maksimum nöqtəsi (zirvəsi) kimi qəbul edilir və üzvlük funksiyalarının artan və azalan hissələri bu nöqtəyə görə müəyyən olunur.




Daha sonra verilən dəyişənlərin aşağı, orta və yüksək səviyyələri riyazi formada ifadə edilir. Bu halda üçbucaq üzvlük funksiyası aşağıdakı kimi müəyyən edilir:

$$\mu(x)=\begin{cases}0, & x\le a\\ \dfrac{x-a}{b-a}, & a<x\le b\\ \dfrac{c-x}{c-b}, & b<x<c\\ 0, & x\ge c\end{cases}$$

Beləliklə, üçbucaq üzvlük funksiyası ilə aqressiya və impulsivliyin aşağı, orta və yüksək səviyyələri üzrə riyazi hesablama aparaq. Aşağıda aqressiya səviyyələrinin aid olduğu qiymət aralıqları göstərilib:

| Aqressiya səviyyələri | Funksiya nöqtələri |
|---|---|
| Aşağı aqressiya | (0, 0.3, 0.5) |
| Orta aqressiya | (0.3, 0.5, 0.8) |
| Yüksək aqressiya | (0.5, 0.8, 1) |

***Aşağı aqressiya:*** Aqressiya səviyyəsi aşağı aqressiya üçün müəyyən edilmiş intervaldan kənarda yerləşdiyinə görə bu səviyyə üzrə üzvlük dərəcəsi sıfıra bərabərdir: $\mu_{aşağı}$ (0.7) = 0

***Orta aqressiya:*** 0.5<0.7<0.8 olduğundan aqressiya səviyyəsi orta aqressiya üçün üçbucaq üzvlük funksiyasının azalan hissəsinə (sağ tərəf) düşür. Bu halda üzvlük dərəcəsi aşağıdakı kimi hesablanır: 0.8-0.7 / 0.8-0.5 = 0.33 (yəni, 0.33 qədər ortadır)

***Yüksək aqressiya:*** 0.5<0.7<0.8 intervalında yerləşdiyinə görə aqressiya səviyyəsi yüksək aqressiya üçün üçbucaq üzvlük funksiyasının artan hissəsinə (sol tərəf) düşür və üzvlük dərəcəsi belə hesablanır: 0.7-0.5 / 0.8-0.5 = 0.67 (yəni, 0.67 qədər yüksəkdir).

Aqressiya dəyişəni üzrə aşağı, orta və yüksək səviyyələrin riyazi qiymətləndirilməsi başa çatdıqdan sonra, eyni qaydada impulsivlik üzrə hesablama həyata keçirilir. Aşağıda impulsivlik səviyyələrinin aid olduğu qiymət aralıqları göstərilib:

| İmpulsivlik səviyyələri | Funksiya nöqtələri |
|---|---|
| Aşağı impulsivlik | (0, 0.3, 0.5) |
| Orta impulsivlik | (0.3, 0.5, 0.8) |
| Yuxarı impulsivlik | (0.5, 0.8, 1) |

***Aşağı impulsivlik:*** İmpulsivlik səviyyəsi $x_2$=0.8 aşağı impulsivlik üçün müəyyən edilmiş intervala daxil olmadığına görə qiymət "0"a bərabər olur. Yəni 0.8 impulsivlik aşağı ola bilməz.

***Orta impulsivlik:*** Orta impulsivlik üçün üçbucaq üzvlük funksiyasının maksimum nöqtəsi 0.5, sağ sərhədi isə 0.8 olduğundan, $x_2$=0.8 bu intervalın son nöqtəsinə düşür və orta səviyyə üzrə üzvlük dərəcəsi sıfır olur. Yəni 0.8 impulsivlik orta ola bilməz.

***Yüksək impulsivlik:*** İmpulsivlik səviyyəsi yüksək impulsivlik üçün müəyyən edilmiş maksimum nöqtə ilə üst-üstə düşdüyünə görə nəticə "1" olur. Başqa sözlə 0.8 impulsivlik mütləq olaraq yüksəkdir.

Daha sonra "əgər-onda" (if, Then) qaydası əsasında model qurulur. Bu zaman müxtəlif risk qaydaları formalaşdırılır. Bu qaydalar isə əvvəlki mərhələdə müəyyən edilən rəqəmlər əsasında müəyyən edilir və sözlə ifadə olunur.

*"Əgər aqresiya yüksək, impulsivlik yüksəkdirsə risk yüksəkdir" - $\alpha_1$ =min(0.67,1)=0.67. Yəni, risk 0.67 səviyyəsində yüksəkdir, tam yüksək deyil.*

*"Əgər aqressiya orta, impulsivlik yüksəkdirdə risk ortadır" - $\alpha_2$ =min(0.33,1)=0.33 səviyyəsində ortadır.*

İstifadə edilən $\alpha_1$=min(μ ($x_1$), μ ($x_2$)) düstürunda dəyişənlərin ekspert tərəfindən hesablanmış qiymətləri yerləşdirilir. Riskin hesablanması üçün hər iki dəyişəndən eyni anda istifadə edildiyi üçün ("and, və") Mamdanı üsulundan minimum üzrə əməliyyat aparılır. Lakin, bir neçə qayda olarsa ("or, və ya") "max" üzrə əməliyyat aparılır. Başqa sözlə, "aqressiya yüksək, impulsivlik yüksək", "aqressiya aşağı, impulsivlik yüksək" və s. olarsa bunların hər biri qayda olduğu üçün "max" üzrə hesablama aparılır. Beləliklə, iki dəyişən üzrə aparılan "qaydaların aktivləşməsi mərhələsi" zamanı tapılan nəticə aşağıdakı kimi təsvir edilə bilər:

| Dəyişən | Aşağı | Orta | Yüksək |
|---|---|---|---|
| Aqressiya (0.7) | 0 | 0.33 | 0.67 |
| İmpulsivlik (0.8) | 0 | 0 | 1 |

3. Bütün qeyd olunanlar müəyyən edildikdən sonra çıxış dəyişənləri tapmaq üçün defuzzifikasiya mərhələsinə keçid edilir. Bu zaman əvvəlki mərhələdə təsbit edilən qaydalar birlikdə tətbiq edilir. Bunun üçün aqreqasiya üsulundan (bu halda "max") yenidən istifadə etməli oluruq. Mamdani üsulu ilə "min" qiyməti hesablayan zaman nəticə, risk çıxış dəyişəni üzrə orta risk üçün 0.33, yüksək risk üçün isə 0.67 aktivləşmə dərəcəsi əldə edilmişdir. Daha sonra max qiymətin tapılması üçün a = max ($a_1$, $a_2$) = 0.67 ilə nəticə aşkar edilir. Bunlar müəyyən edildikdən sonra "diskretləşdirilmiş mərkəz" düsturu ilə hesablama aparılır:

$$y = \frac{\sum x^1 \mu(x^1)\, x^2 \mu(x^2) \ldots}{\sum \mu(x_1)\, \mu(x_2) \ldots}$$

| Simvol | Mənası |
|---|---|
| $x_1, x_2$ .... | Risk səviyyəsinin mərkəzi. |
| $\mu(x_1), \mu(x_2)$ .... | Həmin riskin üzvlük dərəcəsi |
| $\sum$ | Hamısının cəmi |
| y | Son nəticə, risk qiyməti |

y risk = 0.5 (orta riskin mərkəzi) x 0.33 (orta risk üçün qəbul edilmiş mərkəz qiyməti) + 0.8 (yüksək risk mərkəzi) x 0.67 (yüksək risk üçün qəbul edilmiş mərkəz qiyməti) / 0.33 +0.67 = 0.701

Beləliklə, defuzifikasiya ilə sonda əldə edilən risk nəticəsi 0.701 oldu. Həmin qiymət riskin orta ilə yüksək arasında olduğunu göstərir. Bu da həmin şəxs barəsində nəzarət və profilaktik tədbirlərin aparılmasını zəruri edir.

## Nəticə

Aparılan araşdırma göstərdi ki, cinayət davranışının proqnozlaşdırılması sadə səbəb–nəticə modeli ilə izah edilə bilməz. Cinayətkarlıq sosial, psixoloji və bioloji determinantların qarşılıqlı təsiri nəticəsində formalaşan çoxsəviyyəli və dinamik sistemdir. Bu sistemdə hər bir amil ayrıca deyil, digər amillərlə birlikdə təsir göstərir. Məhz bu səbəbdən cinayət riskinin qiymətləndirilməsi mütləq “mövcuddur – mövcud deyil” yanaşması ilə yox, nisbi və dərəcələndirilmiş metodologiya əsasında aparılmalıdır.

Tədqiqat çərçivəsində cinayətə təhrik edən və cinayətdən çəkindirən psixoloji amillər təsnif edildi və onların riskin formalaşmasında oynadığı rol əsaslandırıldı. Müəyyən olundu ki, aqressiya, impulsivlik, frustrasiya tolerantlığının zəifliyi, antisosial ustanovkalar, aşağı empatiya və zəif özünənəzarət kimi xüsusiyyətlər risk yaradan amillər kimi çıxış etdiyi halda, güclü iradə, yüksək empatiya, normativ dəyər-lərin adekvat qavranılması, sosial bağlılıq və psixoloji elastiklik kimi xüsusiy-yətlər qoruyucu mexanizm rolunu oynayır. Bu isə onu göstərir ki, cinayət riskinin hesablanması zamanı yalnız neqativ xüsusiyyətlərin deyil, eyni zamanda müsbət və çəkindirici amillərin də kompleks şəkildə nəzərə alınması zəruridir.

İşdə qeyri-səlis məntiq yanaşmasının tətbiqi cinayət riskinin modelləşdirilməsində daha real və çevik qiymətləndirmə imkanı yaratdığı qənaətinə gəlməyə əsas verir. Psixoloji dəyişənlərin (0;1) intervalında qiymətləndirilməsi, üçbucaq üzvlük funksiyalarının qurulması, “əgər–onda” qaydaları və Mamdani tipli inferens mexanizmi vasitəsilə risk əmsalının hesablanması göstərdi ki, qeyri-müəyyən və zəif strukturlaşmış sosial proseslər belə riyazi modelləşdirmə yolu ilə müəyyən dərəcədə sistemləşdirilə bilər.

Beləliklə, hesab edirəm ki, cinayət davranışının psixoloji determinantları əsasında qeyri-səlis modelləşdirmə həm nəzəri, həm də praktik baxımdan əhəmiyyətli yanaşmadır. Bu model fərdi profilaktik tədbirlərin planlaşdırılmasında, risk qruplarının müəyyən edilməsində, preventiv strategiyaların hazırlanmasında, cinayətkarlıqla mübarizə siyasətinin qurulmasında, cəza çəkəm və cəza çəkməkdən azad edilmiş şəxslərin islah olunması və təkrar cinayət törətmə ehtimalının qiymətləndirilməsində və s. metodoloji baza kimi istifadə oluna bilər.

Eyni zamanda qəbul edilməlidir ki, heç bir model cinayət davranışını yüz faiz dəqiqliklə proqnozlaşdıra bilməz. Lakin riskin nisbi şəkildə qiymətləndirilməsi belə cinayətkarlıqla mübarizədə daha əsaslandırılmış və elmi yanaşmanın formalaşmasına zəmin yarada bilər.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Ağayev F.B. Prosessual hüquqda sosial-hüquqi hadisələrin və proseslərin qeyri-səlis modelləş-dirilməsi. Dərs vəsaiti. Bakı: Hüquq Yayın Evi, 2024, 128 s.
2. Малышева В.В. К вопросу о сущности понятия «уголовно-процес-суальное право». Москва: Актуальные проблемы российского права, 2008;1(6):271–277.
3. Armstrong J.S. Principles of Forecasting: A Handbook for Researchers and Practitioners. 2001.
4. Gleick J. Chaos: Making a New Science. 1987.
5. Hirschi T. Causes of Delinquency. University of California Press. 1969.
6. Rutter M. Resilience as a dynamic concept. Development and Psychopathology. 2012.

7. Berkowitz L. Aggression: Its Causes, Consequences, and Control. New York: McGraw-Hill. 1993.
8. Adler A. Understanding Human Nature. London: George Allen & Unwin. 1927.
9. Eisenberg N., Fabes R.A. Empathy: Conceptualization, Measurement, and Relation to Prosocial Behavior. Motivation and Emotion. 1990.
10. Goldstein A.P. The Prepare Curriculum: Teaching Prosocial Competencies. Champaign, IL: Research Press. 1998.
11. Thomas K.W., Kilmann R.H. The Thomas-Kilmann Conflict Mode Instrument. Tuxedo, NY: Xicom. 1974.
12. Herman J.L. Trauma and Recovery: The aftermath of violence—from domestic abuse to political terror. New York: Basic Books. 1992.
13. https://mude.citg.tudelft.nl/book/2024/pd/risk-analysis/definition.html?-utm_

**Aferin Ali ABBASOVA**
Ph.D in Psychology, Associate Professor at the Department of Psychology and Social Work, Western Caspian University

**Yahya Rza ABDULLALI**
Master's student at the Department of Psychology and Social Work, Western Caspian University

# PREDICTION OF CRIMINAL BEHAVIOR: FUZZY LOGIC–BASED RISK ASSESSMENT BASED ON PSYCHOLOGICAL CHARACTERISTICS

## Summary

This research analyzes the problem of predicting criminal behavior based on psychological characteristics within the framework of fuzzy logic methodology. Crime is considered not merely as a legal phenomenon, but as a complex behavioral system formed through the interaction of social, psychological, and biological determinants. It has been established that the assessment of criminal risk cannot be based solely on simple cause–effect relationships; rather, it requires a comprehensive analysis of multifactorial and uncertain systems. The main objective of the study is to provide a theoretical and methodological justification for estimating the probability of criminal behavior based on an individual’s psychological traits, to systematize the psychological factors that provoke and prevent criminal conduct, and to develop a risk assessment model grounded in fuzzy logic. The study examines the problem of the determination of criminal behavior, the difficulties of prediction, and the identification of order within chaotic systems. Psychological risk factors are classified according to behavioral history, emotional-affective characteristics, cognitive and decision-making mechanisms, personality structure, willpower and self-control, value-motivational system, and socio-psychological skills. At the same time, protective psychological factors that deter criminal behavior are systematized separately, and the necessity of incorporating them into risk assessment is substantiated. In the applied part of the research, fuzzy modeling is explained step by step, including the evaluation of psychological variables within the (0;1) interval, the construction of triangular membership functions, the application of Mamdani-type inference mechanisms based on “if–then” rules, and the defuzzification stage. In conclusion, it is determined that fuzzy logic provides a flexible and scientifically grounded assessment mechanism that takes into account the factor of uncertainty in predicting criminal behavior. The proposed model may serve as a methodological basis for crime prevention, individual risk assessment, and the planning of preventive measures.

**Keywords:** criminal behavior, psychological risk, assessment, value system, motivation, social environment, emotional state, self-control.

**Аферин Али АББАСОВА**
Кандидат психологических наук, доцент кафедры Психологии и Социальной работы, Западно-Каспийский Университет

**Яхья Рза АБДУЛЛАЛИ**
Магистрант кафедры Психологии и Социальной работы, Западно-Каспийский Университет

# ПРОГНОЗИРОВАНИЕ ПРЕСТУПНОГО ПОВЕДЕНИЯ: ОЦЕНКА РИСКА НА ОСНОВЕ НЕЧЁТКОЙ ЛОГИКИ ПО ПСИХОЛОГИЧЕСКИМ ХАРАКТЕРИСТИКАМ

**Резюме**

Данное исследование посвящено анализу проблемы прогнозирования преступного поведения на основе психологических характеристик в рамках методологии нечёткой логики. Преступность рассматривается не только как правовое явление, но и как сложная поведенческая система, формирующаяся в результате взаимодействия социальных, психологических и биологических детерминант. Установлено, что оценка криминального риска не может основываться исключительно на простых причинно-следственных связях, а требует комплексного анализа многофакторных и неопределённых систем. Основной целью исследования является теоретико-методологическое обоснование оценки вероятности преступного поведения на основе психологических особенностей личности, систематизация психологических факторов, провоцирующих и сдерживающих преступное поведение, а также разработка модели оценки риска, основанной на нечёткой логике. В работе рассматриваются проблемы детерминации преступного поведения, сложности его прогнозирования и выявления порядка в хаотических системах. Психологические факторы риска классифицируются по следующим направлениям: поведенческий анамнез, эмоционально-аффективные характеристики, когнитивные и механизмы принятия решений, структура личности, волевая регуляция и самоконтроль, ценностно-мотивационная система, а также социально-психологические навыки. Одновременно отдельно систематизируются защитные психологические факторы, препятствующие преступному поведению, и обосновывается необходимость их включения в процедуру оценки риска. В прикладной части исследования поэтапно раскрывается процесс нечёткого моделирования, включая оценку психологических переменных в интервале (0;1), построение треугольных функций принадлежности, применение механизма вывода типа Мамдани на основе правил «если–то», а также этап дефаззификации. В заключение установлено, что нечёткая логика обеспечивает гибкий и научно обоснованный механизм оценки, учитывающий фактор неопределённости при прогнозировании преступного поведения. Предложенная модель может служить методологической основой для профилактики преступности, индивидуальной оценки риска и планирования превентивных мер.

**Ключевые слова:** криминальное поведение, психологический риск, оценка, система ценностей, мотивация, социальная среда, эмоциональное состояние, самоконтроль.

**Daxil olub:** 05.03.2026